

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 143 (24.030)

*2 avqust 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikanın rayonlarında yarım ilin yekunlarına həsr olunmuş müşavirələr keçirilib



*Muxtar respublikanın rayonlarında altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələrin müəyyənləşdirilməsinə və yarım ilin yekunlarının müzakirəsinə həsr olunmuş müşavirələr keçirilmişdir.*

Şərur Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov giriş sözü ilə açaraq cari ilin birinci yarım ilində rayonda görülmüş işləri diqqətə çatdırmış, qarşıda duran vəzifələrlə bağlı aidiyyəti təşkilatlara müvafiq tapşırıqlar vermişdir. Bildirilmişdir ki, ötən müddətdə muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Şərurda da tikinti-quruculuq işlərinin həcmi artmış və təkcə 2022-ci ilin ilk altı ayında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 39 milyon 656 min 800 manat və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çox vəsait yönəldilmişdir. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 1 faiz artaraq 37 milyon 467 min 700 manat təşkil etmişdir. İqtisadiyyatın bütün sahələrinin inkişafı, yeni sənaye müəssisələrinin yaradılması və yeni iş yerlərinin açılması əhalinin rifahını daha da yüksəltmiş, bu səbəbdən məskunlaşma artmış, rayon əhalisinin sayı 111 min 852 nəfər olmuşdur.

İcra başçısı bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə rayonda aparılan çoxşaxəli tikinti-quruculuq işləri barədə ətraflı məlumat vermiş, qeyd olunmuşdur ki, 2022-ci ilin ilk altı ayında Şərur rayonunda 53 milyon 761,9 manatlıq, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çox sənaye məhsulu istehsalı qeydə alınmışdır. Cari ildə Şərur Sənaye Məhəlləsində işlər çox sürətlə davam etdirilmişdir. Hazırda 3 istehsal korpusundan ibarət olan Sənaye Məhəlləsində ayaqqabı, Avropa qapıları, bərk və yumşaq mebel istehsalı sahələri fəaliyyət göstərir, yeni istehsal sahələrinin qurulması istiqamətində işlər davam etdirilir. Bir çox sahələrlə yanaşı, Şərur Sənaye Məhəlləsində əsas istehsal sahələrindən biri olacaq bitki yağlarının istehsalı müəssisəsini yerli xammalla təmin etmək üçün hazırda rayonda 1032 hektar sahədə qarğıdalı, 70 hektara yaxın sahədə isə günəbaxan bitkisi əkilmişdir. Növbəti il üçün qeyd olunan sahələrin 4-5 dəfə artacağı gözlənilir.

Diqqətə çatdırılmışdır ki, hesabat dövründə rayonda 16 min 234 hektar torpaq sahəsində əkin aparılmış və hesabat dövründə 35 milyon 593 min 200 manatlıq bitkiçilik məhsulu istehsal edilmişdir ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz çoxdur. Cari ildə rayonda 4 min 38 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 3 min 276 hektarını buğda, 762 hektarını isə arpa təşkil etmişdir. Məhsuldarlıq orta hesabla 40,8 sentner olmuşdur. Həyata keçirilən yaşıllaşdırma tədbirləri zamanı 6,7 hektar sahədə yeni meyvə bağları salınmış, 4,5 hektar meyvə bağında isə bərpa işləri aparılmışdır. Barverən meyvə bağlarından 9 min 612 ton məhsul əldə edilmişdir ki, bu da 2021-ci illə müqayisədə 1 faiz çoxdur. Tütünçülük üçün münbit torpaqları, əlverişli təbii-iqlim şəraiti olan rayonda bu sahənin inkişafı istiqamətində lazımi tədbirlər görülmüş, rayonda, ümumilikdə, 8 hektar sahədə tütün əkini həyata keçirilmişdir. Bəhs olunan dövrdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən Şərur rayonu üzrə 16 ailə təsərrüfatçısına sənaye və kənd təsərrüfatı istiqamətində fəaliyyətlərini genişləndirmələri üçün 217 min 800 manatdan çox dövlət maliyyə dəstəyi göstərilmiş, nəticədə, ailə təsərrüfatlarının sayı artaraq 425-ə çatmışdır.

Vurğulanmışdır ki, bu il Şərur rayonu üzrə ümumtəhsil məktəblərindən 520 məzun olmuş, onların 490-ı ali və orta ixtisas məktəblərinə sənəd vermişdir. Məzunların 2-si "Qızıl", 3-ü "Gümüş" nişana, 7-si isə fərqlənmə attestatına layiq görülmüşdür. Ali məktəblərə qəbul olan şagirdlərdən 29-u 500-700 intervalında bal toplamışdır. Qəbul imtahanlarında Şərur rayon 2 nömrəli tam orta məktəbin yetirməsi topladığı 679 balla muxtar respublika birincisi adını qazanmış və "Qızıl" nişana layiq görülmüşdür. Qeyd olunmuşdur ki, turizmin inkişafı üçün Şahbulaq kəndində lazımi tədbirlərin görülməsinə başlanılmışdır. Burada insanların rahat yaşayışı üçün hər cür şərait yaradılmış, bütün infrastruktur yenilənmişdir.

* * *



Ordubad Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov 2022-ci ilin birinci yarım ilinin yekunları ilə əlaqədar çıxışında qeyd etmişdir ki, 2022-ci ilin müvafiq dövrü istər iqtisadi-siyasi, istərsə də sosial-iqtisadi sahədə qazanılmış bir sıra nailiyyətlərlə yaddaşlara həkk olunmuşdur. Ordubad rayonu da 2022-ci ilin müvafiq dövründə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində yüksək göstəricilərlə başa vurmuşdur. Belə ki, 2022-ci ilin yanvar-iyun aylarında 4753 min manatlıq, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz çox sənaye məhsulu istehsal olunmuşdur. 2022-ci ilin yanvar-iyun aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 31405 min manat və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çox vəsait yönəldilmişdir. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 1,3 faiz artaraq 30484,7 min manat təşkil etmişdir. Vurğulanmışdır ki, "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın icrası Ordubad rayonunda da diqqətdə saxlanılmış, bir sıra yeni sosial obyektlər istifadəyə verilmiş, digərlərində isə tikinti işləri davam etdirilmişdir.

Diqqətə çatdırılmışdır ki, 2022-ci ilin birinci yarım ili ərzində Ordubad Rayon Vergilər Şöbəsi tərəfindən vergi daxilolmaları üzrə proqnoz tapşırığa 1 milyon 576 min 800 manata qarşı 1 milyon 616 min 100 manat, məcburi dövlət sosial sığorta haqlarının yığılması üzrə 2 milyon 485 min manata qarşı 2 milyon 805 min 100 manat, işsizlikdən sığorta haqları üzrə 95 min manata qarşı 109 min 800 manat vəsait toplanmışdır. 2022-ci ilin birinci yarım ilində rayon üzrə yerli büdcənin gəlirləri yol fondu daxil olmaqla, 1 milyon 576 min 800 manat plana qarşı 1 milyon 616 min 61 manat məbləğində icra edilərək 102,5 faiz yerinə yetirilmişdir. Yerli büdcənin xərcləri 1 milyon 772 min 400 manat məbləğində icra edilmişdir.

Bildirilmişdir ki, 2022-ci ilin müvafiq dövründə kənd təsərrüfatında məhsuldarlığın artırılmasına son illərdə qəbul olunmuş Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası müsbət təsir göstərmiş və aqrar sahənin davamlı inkişafı təmin olunmuşdur. 2022-ci ilin məhsulu üçün 3937 hektar sahədə əkin aparılmışdır. Əkin sahələrinin 1800 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 11 hektarını dən üçün qarğıdalı, 587 hektarını kartof, 647 hektarını tərəvəz bitkiləri, 18 hektarını ərzaq üçün bostan bitkiləri, 214 hektarını cari ildə əkilmiş çoxillik otlar, 660 hektarını əvvəlki illərdə əkilmiş çoxillik otlar təşkil edir. 1 iyul 2022-ci il tarixə 1800 hektar dənli və dənli-paxlalı bitkilərin əkin sahəsinin 83,5 faizindən 4347 ton məhsul yığılmış, məhsuldarlıq 28,9 sentner təşkil etmişdir. 587 hektar kartof əkilmiş sahənin 38,2 faizindən 3452 ton kartof, 647 hektar tərəvəz bitkiləri əkilmiş sahənin 22,4 faizindən 964 ton tərəvəz yığılmışdır. Hazırda məhsul yığımı davam edir.

Qeyd olunmuşdur ki, 1 iyul 2022-ci il tarixə barverən meyvə bağlarından 192 ton məhsul yığılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. 2022-ci ilin yanvar-iyun aylarında Ordubad rayonunda diri çəkidə 2337,6 ton ət, 3736,2 ton süd, 9153 min ədəd yumurta, 93,2 ton yun istehsal edilmişdir. 2021-ci ilin yanvar-iyun ayları ilə müqayisədə ət istehsalı 35,7 faiz, süd istehsalı 1,5 faiz, yumurta istehsalı 1,1 faiz, yun istehsalı 1 faiz artmışdır.

Müşavirədə, həmçinin 2022-ci ilin ilk yarım ilində səhiyyə, təhsil, mədəniyyət, rabitə, elektrik, qaz xidməti və digər sahələrdəki vəziyyət də müzakirə edilmişdir.

Babək Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə çıxış edən İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov 2022-ci ilin birinci yarım ilində rayonda tikinti-quruculuq işlərinin geniş vüsət almasından danışıb. Bildirib ki, dövlət qayğısı nəticəsində aqrar rayon olan Babəkdə 2022-ci ilin məhsulu üçün 16172 hektar sahədə əkin aparılıb. Əkin sahələrinin 11094 hektarını taxıl təşkil edib. Artıq biçin kampaniyası başa çatıb və sahələrdən 35308 ton məhsul tədarük olunub.



Diqqətə çatdırılıb ki, kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə 2022-ci ilin birinci yarısında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə güzəştli şərtlərlə sahibkarlara 11 texnika və texnoloji avadanlıq lizinq yolu ilə satılıb. Bu dövrdə dövlət tərəfindən payızlıq taxıl əkinlərinə görə 1784 istehsalçıya 10800 hektar əkin sahəsi üçün 677 min 439 manat məbləğində subsidiya, 2591 ton 301 kiloqram azot gübrəsi verilib.

Vurğulanıb ki, 2022-ci ilin ötən 6 ayı ərzində ailə təsərrüfatlarına dövlət dəstəyinin göstərilməsi diqqət mərkəzində saxlanılıb, istehsal genişlənib, yeni iş yerləri açılıb. Hesabat dövrü ərzində Babək rayonunda müxtəlif sahələr üzrə yaradılan ailə təsərrüfatlarının sayı 207-yə çatdırılıb. 2022-ci ilin birinci yarısında rabitə xidmətinin səviyyəsinin yüksəldilməsi məqsədilə də rayonda bir sıra işlər görülüb. Bəhs olunan dövrdə vətəndaşlardan daxil olan müraciətlər əsasında 122 telefon, 554 genişzolaqlı internet xətti çəkilib.

Bildirilib ki, bu ilin yanvar-iyun ayları ərzində ekoloji tarazlığın qorunması məqsədilə iməciliklər yolu ilə 2,2 hektar sahədə yeni yaşıllıq zolağı salınıb, 2,5 hektar sahədə bərpa işləri aparılıb. Bu dövrdə 5444 ağac, gül və bəzək kolları əkilib.

* * *



Culfa Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev bu ilin birinci yarısında görülmüş işlərə dair geniş hesabat məruzəsi ilə çıxış etmişdir. Bildirilmişdir ki, 2022-ci ilin birinci yarısında muxtar respublika iqtisadiyyatında əldə olunan inkişaf və tərəqqi Culfa rayonunda da özünü bariz şəkildə göstərmişdir. Rayonda yeni istehsal müəssisələri yaradılmış, məhsul istehsalının çeşidliliyi genişləndirilmişdir. Bu dövrdə tikinti-quraşdırma və abadlıq işləri davam etdirilmiş, əhalinin rifah halının yüksəldilməsi, xüsusilə insanların sağlamlığının qorunması və pandemiya ilə mübarizə sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir. Bunun nəticəsidir ki, rayonun sosial-iqtisadi göstəriciləri bundan əvvəlki illərin müvafiq dövrünün göstəriciləri ilə müqayisədə xeyli artmışdır. Rayonun sosial-iqtisadi inkişafı istiqamətində əldə olunmuş bu nailiyyətlər 2022-ci ilin ikinci yarısında da davam etdirilməli, bütün idarə və müəssisələrdə tələbkarlıq artırılmalı, nizam-intizama əməl edilməli və qarşıya qoyulan vəzifələr vaxtında icra olunmalıdır.

Diqqətə çatdırılmışdır ki, rayonda iqtisadi inkişafın əsas göstəricisi kimi makroiqtisadi sabitliyin möhkəmləndirilməsi diqqətdə saxlanılmalıdır. Maliyyə Şöbəsi etibarlı maliyyə sistemi əsasında təhlillər apararaq büdcə xərclərinin icrasına nəzarəti gücləndirməlidir.

Bildirilmişdir ki, bu ilin məhsulu üçün ötən illərdən qalma çoxillik otlar da daxil olmaqla rayonda 8213 hektar sahədə əkin aparılmışdır. Hazırda kənd təsərrüfatı məhsullarının yığımı davam etdirilir. Culfa Rayon İcra Hakimiyyətinin aidiyyəti şöbələri və inzibati ərazi dairəsi üzrə nümayəndəliklər əkin strukturuna daxil olan torpaqların əkilməsini diqqətdə saxlamalı, dəmyə torpaqlarda taxıl əkininin genişləndirilməsi üçün müvafiq tədbirlər görməli, kənd təsərrüfatı məhsullarının yığımını vaxtında başa çatdırmalı, həmçinin kənd təsərrüfatı məhsullarının birbaşa satışına köməklik göstərilməsi məqsədilə yarmarkaların təşkili istiqamətində tədbirləri davam etdirməlidir.

Vurğulanmışdır ki, rayonda ekoloji tarazlığın qorunması məsələləri diqqətdə saxlanılmalı, yaşıllıq sahələrinin suvarılması təmin edilməlidir. Şəhər və kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklər ərazilərin təmizliyini diqqətdə saxlamalı, vətəndaşlar tərəfindən daxil olan ərizə və şikayətlərə vaxtında və qanunvericiliyin tələblərinə uyğun baxılmalı, onların əsaslı müraciətlərinin həllinə nail olunmalıdır.

Qeyd edilmişdir ki, Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi müvafiq Dövlət proqramlarının icrasını bundan sonra da diqqət mərkəzində saxlamalı, özünüməşğulluq tədbirlərini genişləndirməli, sosial qayğıya ehtiyacı olanlara və tənha ahıllara xidmət işinə nəzarəti gücləndirməlidir. Şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə hər zaman xüsusi diqqət və qayğı göstərilməli, onların mövcud problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilməlidir. Culfa Rayon Mərkəzi Xəstəxanası əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməli, əhalinin sağlamlığının qorunması sahəsində müəyyənləşdirilən tədbirləri ardıcıl şəkildə həyata keçirməlidir. Gigiyena və Epidemiologiya Şöbəsi epidemioloji vəziyyətlə bağlı tədbirləri davam etdirməli, sanitariya-gigiyena normalarına əməl olunmasını diqqətdə saxlamalı, qrafikə uyğun dezinfeksiya işlərini aparmalıdır.

*Ardı 2-ci səhifədə*



Kəngərli Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov məruzə ilə çıxış edib. Bildirilib ki, hesabat dövründə rayonun iqtisadiyyatında xüsusi rola malik kənd təsərrüfatının inkişafı diqqətdən kənarda qalmayıb, bitkiçilik və heyvandarlıq məhsulları istehsalını artırmaq üçün ardıcıl tədbirlər həyata keçirilib. Cari ilin məhsulu üçün rayonda ötən ilin payızında və bu ilin yazında 6 min 56 hektar sahədə taxıl əkini aparılıb. Ondan 3 min 287 hektarını buğda, 2 min 769 hektarını isə arpa təşkil edib. İyunun 12-dən taxıl biçininə başlanılıb. Biçinə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin, "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin və sahibkarların kombaynları olmaqla, ümumilikdə, 16 kombayn cəlb edilib.

Diqqətə çatdırılıb ki, son illər həyata keçirilən meliorativ tədbirlər çərçivəsində aprel ayında Böyükdüz kəndi ərazisində 2200 hektar torpaq sahəsini suvarma suyu ilə təmin edəcək yeni nasos stansiyası və təzyiqli boru xətti istifadəyə verilib. Bu işlərin davamı olaraq Böyükdüz və Xok kəndlərinin 3200 hektar əkin sahəsini suvarma suyu ilə təmin etmək üçün Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisinə başlanılıb. Bununla yanaşı, rayonda heyvandarlığın inkişafına da diqqət artırılıb, yeni heyvandarlıq təsərrüfatları yaradılıb. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma işi diqqətdə saxlanılıb, 357 baş ana mal mayalandırılıb, 357 baş cins bala alınıb. Arıçılığın inkişafı ilə bağlı bir sıra işlər görülüb, arı ailələrinin sayı 158 təsərrüfatda 2 min 206-ya çatdırılıb. Həmçinin cari ilin birinci yarım ili ərzində 3,6 hektar sahədə meşəsalma, 9,8 hektar sahədə meşəbərpa işləri aparılıb, 5977 qarışıq meyvə tingi, 640 meşə tingi, 950 həmişəyaşıl ağac, 117 çinar, 2055 badam tingi və 2450 gül kolu əkilib.

Məruzədə rayonda aparılan tikinti-quruculuq işlərindən də geniş bəhs edilib. Bildirilib ki, hesabat dövründə 1 şəhid ailəsi və Vətən müharibəsi iştirakçılarından ikisi mənzillə, digər ikisi isə avtomobillə təmin olunub.

Qeyd edilib ki, torpaqlardan təyinatı üzrə istifadə olunması ilə bağlı aparılan yoxlamalar zamanı vətəndaşlar tərəfindən zəbt edilən, çəpərlənən, qanunsuz istifadə olunan 73 min 237 kvadratmetr torpaq sahəsi əvvəlki vəziyyətinə qaytarılıb, 4 min 128 kvadratmetr torpaq sahəsi isə sənədləşdirilərək mülkiyyətə verilib.

2022-ci ilin birinci yarısında məşğulluq tədbirləri də diqqət mərkəzində saxlanılıb. Bəhs olunan dövrdə 1 əmək yarmarkası keçirilib, 32 nəfərə işə göndəriş verilib. Aztəminatlı və xüsusi qayğıya ehtiyacı olan ailələrdən 18 nəfər özünüməşğulluq proqramına cəlb olunaraq fərdi təsərrüfatlarının yaradılması təmin edilib. Həmin ailələrdən 6 nəfərin hər birinə 1 baş yanıbalalı inək, 9 nəfərə isə 10 baş yanıbalalı qoyun, 1 ailəyə miniyerşumlayan aqreqat, 1 ailəyə 10 yeşik arı ailəsi, 1 ailəyə isə inkubator və quş tükü təmizləyən aparat verilib. Əlavə olaraq "Nəqsicahan Holdinq" Şirkətlər Qrupu tərəfindən maliyyələşdirilərək 1 ailəyə 2 baş iribuynuzlu, 2 ailənin hər birinə 20 baş xırdabuynuzlu, 1 ailəyə isə sahibkarlıq subyekti tərəfindən maliyyələşdirilərək 20 baş xırdabuynuzlu alınaraq verilib. Ümumilikdə, rayonda 149 işaxtaran vətəndaş qeydə alınıb, 124 nəfər işlə təmin olunub. 8 nəfər işaxtaran və işsiz vətəndaş peşə təhsilinə cəlb edilib.

Şahbuz Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev çıxış edərək bildirib ki, 2022-ci ilin ötən dövründə də rayonun sosial-iqtisadi inkişafı, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində məqsədyönlü iş aparılıb, qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə səy göstərilib.

Qeyd edilib ki, əhalinin əsas məşğulluq sahəsi olan aqrar sahənin inkişafına göstərilən dövlət qayğısı sayəsində bu sahəyə maraq xeyli artıb, 2022-ci ilin məhsulu üçün 2021-ci ilin payızında 1441 hektar sahədə səpin aparılıb. İqtisadiyyatın və sosial sahələrin inkişafı üçün 2022-ci ilin yanvar-may aylarında 5 milyon 425 min 200 manatlıq sənaye məhsulu istehsal olunub ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz çoxdur. 2022-ci ilin yanvar-may aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 7 milyon 129 min 500 manat və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çox vəsait yönəldilib.

2022-ci il 1 iyun tarixinə 968 hektar sahədə yazlıq bitkilərin əkini aparılıb. 2022-ci ilin məhsulu üçün, ümumilikdə, 1527 hektar sahədə taxıl əkini həyata keçirilib.

Şahbuz rayonu üzrə 2022-ci ilin yanvar-may aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 904 min 800 manat olub ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,5 faiz çoxdur.

Abadlıq-quruculuq tədbirlərinin keçirildiyi yaşayış məntəqələrində təbii qaz xətləri yenidən işlənib, təmir-bərpa işləri aparılıb, 22 abonentə yeni qaz xətti çəkilib. 2022-ci ilin 6 ayında işlədilən 5 milyon 902 min 360 kubmetr təbii qazın dəyərinin yığılması 100 faiz təmin edilib, 1 milyon 822 min 800 manat vəsait toplanıb.

Rayon əhalisinin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması, təmir və qəzalar zamanı yaranan fasilələrin müddətinin azaldılması məqsədilə 5 ədəd ayrıcı, 54 ədəd qoruyucu



quraşdırılıb. 2022-ci ilin altı ayı ərzində istifadə edilən 7 milyon 421 min kilovat-saat enerjinin 652 min 198 manatlıq dəyəri vaxtında toplanaraq 100 faiz yerinə yetirilib.

Bəhs olunan dövrdə aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdirilib, 1627 ailənin 1744 üzvünə 1 milyon 386 min 404 manat məbləğində müxtəlif növ sosial müavinətlər vaxtında ödənilib.

Rayonda əhalinin sağlamlığının qorunması istiqamətində də müvafiq tədbirlər həyata keçirilib, icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar Şahbuz Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsə ötən 6 ayda müraciət edən vətəndaşlardan 90 nəfəri stasionar müalicəyə cəlb edilib, 36 nəfərdə cərrahi əməliyyat aparılıb, 1991 nəfərə muxtar respublikanın digər müalicə mərkəzlərinə göndəriş verilib, 327 çarpayı günü olub, 11 min 72 nəfərə ambulator xidmət göstərilib. Mövsümi və yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə ötən dövr ərzində hazırlanmış qrafik əsasında 270 obyektdə 261 min 138 kvadratmetr sahədə dezinfeksiya, 1 obyektdə 8 dəfə olmaqla, 32 min 905 kvadratmetr sahədə dezinseksiya tədbirləri aparılıb.

Şəhid ailələrinin, Azərbaycan Vətən müharibəsi zamanı sağlamlıqlarını itirən şəxslərin, problemlərinin vaxtında həll olunmasına mütəmadi diqqət yetirilib. İkinci Qarabağ müharibəsində yaralanmış müharibə iştirakçıları diqqətdə saxlanılıb, Şahbuz şəhərində yeni inşa olunan yaşayış binasından 1 şəhid ailəsinə 2 otaqlı mənzil təmir edilərək verilib.

* * *

Sədərək Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Mahirə Adnayeva açaraq bildirib ki, 2022-ci ilin birinci yarısı istər ictimai-siyasi, istərsə də sosial-iqtisadi sahədə qazanılmış bir sıra nailiyyətlərlə yadda qalıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında geniş vüsət alan tikinti-quruculuq işləri Sədərək rayonunu da əhatə edib.

Diqqətə çatdırılıb ki, ötən ilin payızında 2441 hektar sahədə əkin həyata keçirilib. Bunun 796 hektarı buğda, 1645 hektarı isə arpa olub. Bəhs edilən dövrdə rayonda 1302 hektar sahədə yazlıq əkin aparılıb. Əkin sahəsinin 85 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 37 hektarını dən üçün qarğıdalı, 29 hektarını dən üçün günəbaxan, 386 hektarını tərəvəz bitkiləri, 194 hektarını ərzaq üçün bostan bitkiləri, 119 hektarını kartof, 452 hektarını cari ildə əkilmiş çoxillik otlar təşkil edir. 2022-ci ilin 6 ayı ərzində rayonun torpaq mülkiyyətçilərinə 1 rotorlu otbiçən, 2 yemqıran, 1 kotan və 1 dırmıq aqreqatı lizinq yolu ilə satılıb. 2021-ci ilin payız əkinlərinə görə 2022-ci ilin əvvəlində 775 torpaq mülkiyyətçisinə 2388 hektar əkin sahəsi üçün 351 min 36 manat dəyərində 573 min 120 kiloqram güzəştli şərtlərlə gübrə paylanılıb, 775 torpaq mülkiyyətçisinə 150 min 444, 2022-ci ilin yaz əkinlərinə görə isə 107 təsərrüfatçıya 1313 hektar əkin üçün 81 min 368 manat subsidiya verilib. Həmçinin həmin təsərrüfat sahiblərinə 280 min 528 kiloqram güzəştli şərtlərlə gübrə paylanılıb.

Bildirilib ki, rayonda taxıl biçini müvəffəqiyyətlə başa çatdırılıb, əkilən 2441 hektar sahədən 8941 ton məhsul yığılıb, məhsuldarlıq 36,6 sentner təşkil edib. Kənd təsərrüfatında əkinçiliyin inkişaf etdirilməsi üçün suvarma işlərinin əsas rol oynadığı nəzərə alınaraq mövsüm ərzində bu sahə daim nəzarətdə saxlanılıb. Hesabat dövrü ərzində rayonda 45 subartezian quyusu təmir olunub, 4 subartezian quyusuna isə yeni nasos salınıb.

Vurğulanıb ki, rayon Baytarlıq İdarəsi heyvanlar arasında müxtəlif xəstəliklərin yayılmasının qarşısını alır, epizootik vəziyyəti nəzarətdə saxlayır, süni mayalanma işi və



mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına diqqəti artırır. Ərzaq təminatında xüsusi çəkiyə malik olan bu sahənin məhsuldarlığını yüksəltmək, mal-qaranın cins tərkibini yaxşılaşdırmaq üçün süni mayalanma tədbirlərinin əhatə dairəsi genişləndirilib.

İqtisadi cəhətdən yüksək gəlirgətirən, qida və müalicəvi baxımdan faydalı xüsusiyyətlərə malik təsərrüfat sahəsi kimi arıçılığın inkişafına diqqət artırılıb. Həmçinin ailə təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi, onların ixtisaslaşması və dövlət dəstəyinin artırılması məqsədilə bir çox tədbirlər ardıcıl olaraq davam etdirilib.

Ekologiyanın mühafizəsi sahəsində görülən tədbirlərin davamı olaraq, ümumilikdə, rayonda 3710 meyvə, 905 meşə, 7170 gül və bəzək kolları, 2220 isə üzüm kolu əkilib. İl ərzində yaşıllaşdırma işləri davam etdiriləcəkdir.

İcra başçısı diqqətə çatdırıb ki, cari ilin 6 ayı ərzində rayon ümumtəhsil məktəblərinin maddi-texniki bazası gücləndirilib və görülən tədbirlər nəticəsində təhsilin səmərəliliyinin və keyfiyyətinin yaxşılaşdırılmasına şərait yaradılıb. 2021-2022-ci tədris ilində ümumtəhsil məktəblərinin XI sinfindən məzun olmuş 85 şagirddən 53-ü ali məktəblərə 14-ü kolleclərə, 9-u isə Hərbi feldşer işi ixtisasına sənəd verib.

*Muxtar respublikanın rayonlarında keçirilən müşavirələr məruzə ətrafında çıxışlarla davam etdirilib. Bildirilib ki, cari ildə idarə və müəssisələrdə işləyən, tərəqqiyə, inkişafa töhfəsini verənlərin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, onlara fəxri adlar və mükafatlar verilib. Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi bundan sonra da əzmkarlıqla təmin ediləcək. Vurğulanıb ki, rayonların sosial-iqtisadi inkişafı üçün yaradılan şəraitdən səmərəli istifadə edilərək daha yüksək nəticələr əldə olunmağa səy göstəriləcək.*

**Xəbərlər şöbəsi**

# Muzey ziyarətləri davam edir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin edilir. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə şərait yaradır. İyulun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Naxçıvan şəhərində yerləşən "Naxçıvanqala" Tarixi-Memarlıq Muzey Kompleksində olublar.*

Ekskursiya çərçivəsində qonaqlara məlumat verilib ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Bunun nəticəsidir ki, tarixin bütün dövrlərinə aid bu ərazidə zəngin mədəniyyət və memarlıq nümunələri yaradılıb. Bu abidələr sırasında "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi mühüm əhəmiyyət kəsb edir. Belə abidələrin bərpası və qorunması gələcək nəsillərə Azərbaycanın qədim tarixinin çatdırılması, eyni zamanda Naxçıvana turistlərin marağının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuş Naxçıvanqala müharibələr nəticəsində dağıdılmış və əvvəlki möhtəşəmliyini itirmişdi. 2010-cu ildə Naxçıvan-



qalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə burada "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında qərar qəbul edilib. Orijinal tərtibatı ilə seçilən muzeydə Naxçıvan Muxtar Respublikasının ərazisində aşkarlanan tarixi əşyalar xronoloji ardıcıllıqla düzülüb. Eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-VIII minilliyə aid müxtəlif məişət əşyaları, Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatları, mis qab və alətlər, qəbirüstü abidələr, silahlar muzeyin eksponatları sırasındadır.

Qeyd olunub ki, dünyanın ən qədim insan məskənlərindən biri olan Naxçıvan Muxtar Respublikasının ərazisində xalqımız tarixin bütün dövrlərində zəngin mədəniyyət və memarlıq nümunələri yaradıb. Tarixi araşdırmalar göstərir ki, bu memarlıq abidələri arasında özünəməxsus yeri olan Naxçıvanqala yalnız müdafiə məqsədi daşımayıb. Bu qala, eyni zamanda burada formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilib.

Diqqətə çatdırılıb ki, əsrlərboyu milli-mənəvi dəyərlərinə, tarixinə və etnoqrafiyasına sahib çıxan dövlətimiz mədəni irsimizin daşıyıcısı olan türbələrimizi, tarixi hamamlarımızı, habelə qədim qala abidələrimizi qoruyub saxlayıb, onu gələcək nəsillərə miras buraxıb. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması da tariximizə, milli kimliyimizə bağlılığın bariz nümunəsidir.

Həmin gün Nazirlər Kabinetinin kollektivi Naxçıvan Dövlət Xalça Muzeyində, Ali Məhkəmə, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşdırılmış məhkəmələrin əməkdaşları Cəmşid Naxçıvanski Muzeyində, Daxili İşlər Nazirliyinin kollektivi Xatirə Muzeyində, Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları Bəhruz Kəngərli Muzeyində, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Hərbi Prokurorluq və Naxçıvan Şəhər Prokurorluğunda fəaliyyət göstərənlər Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində, Ədliyyə Nazirliyi və Penitensiar Xidmətin Aparatında çalışanlar "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsində, Fövqəladə Hallar Nazirliyi və struktur qurumlarının əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasında, Dövlət Gömrük Komitəsinin kollektivi Qarabağlar Türbə Kompleksində, İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının əməkdaşları Duz Muzeyində, Maliyyə Nazirliyində fəaliyyət göstərənlər Milli Dəyərlər Muzeyində, İqtisadiyyat Nazirliyinin kollektivi Yusif Küseyir oğlu məqbərəsində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və struktur qurumlarının nümayəndələri Nəbatat Bağında, Kənd Təsərrüfatı Nazirliyi, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları Naxçıvan Biznes Mərkəzində, Rabitə və Yeni Texnologiyalar Nazirliyi və struktur qurumlarında çalışanlar Heydər Əliyev Muzeyində, Səhiyyə Nazirliyinin əməkdaşları Dövlət Bayrağı Muzeyində, Təhsil Nazirliyində fəaliyyət göstərənlər Ədəbiyyat Muzeyində, Mədəniyyət Nazirliyinin kollektivi Cəlil Məmmədquluzadənin ev-muzeyində, Gənclər və İdman Nazirliyinin əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyində fəaliyyət göstərənlər "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olublar.

**Məcid RƏŞADƏTOĞLU**

*Müasir dövrdə ölkəmizin sosial-iqtisadi, mədəni həyatında baş verən intensiv tərəqqinin tələblərinə uyğun kompleks islahatlar proqramı həyata keçirilir. Təxirəsalınmaz islahatların mühüm tərkib hissələrindən biri kimi inkişafımızın strategiyasına cavab verə biləcək təhsil sisteminin təkmilləşdirilməsi daha da aktuallaşır. Əsas məqsəd formalaşmaqda olan gənc nəsli kiçik yaşlardan həyata uğurlu hazırlamaqdan ibarətdir. Həyata, əməli fəaliyyətə hazırlıq isə ölkədə gedən yeni iqtisadi inkişaf tempinin tələbinə müvafiq düzgün peşə ixtisaslarına sahiblənməyi özündə ehtiva etməsidir.*

# İxtisas seçimi:
## *zamanında verilmiş düzgün qərar uğurun açarıdır*





Bəs düzgün peşə seçimi üçün nə etməliyik? Ali məktəbə qəbul olmaq hər bir abituriyentin arzusudur. Bunun üçün isə düzgün ixtisas seçimi, xüsusilə zəruridir. Düzgün ixtisas seçimi abituriyentin həyatında və gələcək karyerasının formalaşmasında ən zəruri amillərdəndir. Çünki sizin bugünkü seçiminiz gələcək həyatınıza təsir edir. Bəzən abituriyentlər bu seçimə səthi yanaşır və topladığı bal hara uyğundursa, heç araşdırma etmədən, intellekt, maraq və qabiliyyəti ilə o ixtisasa uyğun olub-olmadığını düşünmədən seçim edirlər. Bəzən isə tam əksinə hadisələr baş verir. Bu zaman siz ehtiyatlı davranmalı və yaxşı araşdırma etməlisiniz. Mütəxəssislərin fikrinə görə, hər bir abituriyent seçə biləcəyi ali təhsil ocaqlarını, münasib ixtisasları qabaqcadan dəqiqləşdirməlidir. Bundan başqa, iş dünyasının hansı universitetin məzunlarına daha çox etibar etdiyini də araşdırmaq lazımdır. Çünki bu, gələcəkdə məzun olacaq tələbələrə bilik və təcrübə ilə yanaşı, işəgötürən müəssisə tərəfindən verilən müsbət qiymət kimi də dəyərləndiriləcək. Gənclərin əksəriyyəti ixtisas seçərkən onun prestijli olmasını əsas tutur. Onlar istəyirlər ki, ixtisasları sosial tələblərə cavab versin. İş yeri seçimində digər amil olaraq əməkhaqqını əsas götürən gənclər də az deyil. Amma onu da unudurlar ki, peşəyə görə əməkhaqqı ödənilmir.

Abituriyentləri və valideynləri ən çox maraqlandıran suallardan biri bu il qəbul imtahanlarında formalaşacaq keçid balları ilə əlaqədardır. Dövlət İmtahan Mərkəzi tərəfindən 2021-ci ildə ixtisaslar üzrə keçid ballarının “Abituriyent” jurnalının 2-ci nömrəsində çap olunması şagirdlərdə mövzuyla bağlı sualların yaranmasına səbəb olub. Ötən illə müqayisədə bu il ixtisas seçimi edərkən 2021-ci ildə formalaşan balların əhəmiyyətli olub-olmaması qeyri-müəyyən qalır. Keçid balı müəyyən bir ixtisas üzrə müsabiqədə iştirak edən abituriyentlərin sayı, həmin ixtisas üzrə plan yerləri və abituriyentlərin imtahan nəticələrindən asılı olaraq formalaşır. Abituriyent ixtisas seçimi edərkən öz istəyi ilə yanaşı, mövcud müsabiqə vəziyyətinin reallıqlarını – ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanmasını, öz imtahan nəticəsinin bu sıralamadakı yerini, həmçinin ötən illər formalaşmış keçid ballarını nəzərə alması onun seçiminin uğurlu olmasına müsbət təsir edə bilər. İxtisas seçimində ən önəmli faktorlardan biri abituriyentin topladığı balın miqdarıdır. Çünki abituriyent ixtisas seçimindəki sıralamanı topladığı bala uyğun olaraq müəyyənləşdirir. Yüksək bal toplayan abituriyentlərə ixtisas seçimi çətinlik yaratmır. Yəni onlar hansı ixtisası öz potensiallarına uyğun hesab edib seçirlərsə, həmin ixtisasa da qəbul olmaq ehtimalları çox olur. 600 və 700 bal toplayan abituriyentlər hansı sahənin mütəxəssisi olmaq istəyirlərsə, buna asanlıqla yiyələnə bilirlər. Ballar aşağı düşdükcə isə, heç şübhəsiz, abituriyentlər ciddi seçim qarşısında qalırlar. Əsasən, 200-400 bal toplayan abituriyentlər böyük risk altında olur və onların əsas məqsədi istədiyi ixtisası seçmək yox, hansısa bir ixtisasa – universitetə qəbul olmaq olur. Abituriyentin balı aşağı düşdükcə seçdiyi ixtisaslarda mütəxəssis olma ehtimalı azalır və bu ixtisas üzrə təhsilini davam etmək istəyinə mənfi təsir göstərir. Bunun üçün ixtisas seçərkən ilk ikisi topladığı baldan bir az yuxarı bal tələb edən ixtisaslar yazılmalıdır. Bundan sonra isə ideal seçim sırası edilməlidir. Burada da əsas olaraq abituriyentin istəyi ön planda olmalıdır. Ümumiyyətlə, abituriyent oxumaq istəmədiyi ixtisasları seçməməlidir. Abituriyentin ixtisas seçərkən diqqət etməli olduğu əsas məsələlərdən biri də ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən abituriyentlərin topladıqları balların paylanması üzrə saylarını, öz fərdi imtahan göstəricilərinin bu sıralanmadakı yerini müəyyən edərək ona əsasən kodlaşdırma aparmasıdır. Yadda saxlamaq lazımdır ki, bütün ixtisaslar lazımlı və faydalıdır. Lakin onlardan biri sizə daha yaxındır. Hansı ixtisasda istedadınızın olduğunu aşkara çıxarmaq lazımdır. Yəqin ki, məktəbdə siz də hər hansı bacarıq və qabiliyyətinizə görə digər şagirdlərdən fərqlənirsiniz. Belə isə özünüzə bu sualla müraciət edin: “Mənim istedadım nəyə qadirdir?” İnsan peşəsinə qarşı sevgi, həvəslə işləmədikdə, çətin ki işdə böyük uğurlara nail olsun. O, adi, sıradan bir işçi kimi də qalacaq. Lakin insan arzuladığı ixtisası seçdikdə nəinki yüksək nəticələrə nail olacaq, həmçinin işdə də hər zaman sayılan və seçilənlərdən olacaq. Arzulayın və arzunuza doğru gedin.

Əgər məntiqinizin səsi daha çox tələbatın olduğu peşəni seçməyinizi tələb edirsə, 5-10 ildən sonra hansı peşəyə daha çox tələbatın olacağını aydınlaşdırın. Ola bilsin ki, bu seçiminizlə uzun illərboyu özünüzü təmin edə bildiniz. İnsanlar sizinlə eyni addımlaya bilər, lakin sizi ötüb keçə bilməzlər. Bir çoxları valideynlərinin təklif etdiyi ixtisasları seçirlər. Bəs gələcəkdə bu ixtisasda kim işləyəcək? Başqalarının arzularını reallaşdırmayın. Əksər insanlar uğur qazanmış insanların həyat tarixçələrini oxuyaraq onları özlərinə ideal şəxs olaraq seçir və onların uğurlarını təkrarlamağa çalışırlar. Uğur qazanmış insanların tarixçələrini oxuyun. Ola bilsin, onlar sizə motivasiya qazandıracaq və nə istədiyinizi onlar sizə deyəcək. İxtisas seçərkən onu özünüzə görə seçin. Beləliklə, gələcəyin ən yaxşı mütəxəssislərindən birinə çevrilin.

Təəssüflər olsun ki, insanlar peşə seçərkən onların qərarlarına təsir edəcək bir çox amillərlə qarşılaşırlar. Bu amillər sırasına onun doğulduğu ailəsi, yaşadığı cəmiyyət, fərdi xarakterik xüsusiyyətləri, maraq və meylləri, qabiliyyətləri də daxildir. Bəzi hallarda insanın peşə seçimi etməyində həyat şərtləri də rol oynayır. Ancaq peşə seçiminə təsir edən əsas faktorlardan biri məhz ailədir. Deməkolar ki, bir çox uşaqlı ailələri düşündürən əsas sual da övladlarının “Böyüyəndə kim olacaq?” sualıdır. Alman filosofu Nitşe “İnsan ruhu etdiyi seçimlərlə müəyyənləşir” demişdi.

Zənn edirəm, Nitşenin bu fikrini cəmiyyətdə hər zaman aktuallığını qoruyan “Peşə seçimi” mövzusuna da aid edə bilərik. Ümumiyyətlə, peşə seçimi elə bir anlayışdır ki, biz özümüzə hər hansı bir ixtisas seçməklə bir növ gələcək həyatımızı da zəmanət altına almış oluruq. Valideynlər çox vaxt övladlarını özlərinin arzusunda olduğu, ancaq yiyələnə bilmədikləri ixtisaslara yönəldirlər. Belə halda isə övladlarının əvəzinə seçimi valideynlər etmiş olur. Valideynlərin fikirlərinə əsaslanarkən gənclər öz arzu, istək və bacarıqlarını nəzərə almırlar. Doğrudur, hər bir valideyn övladının uğur qazanmasını istər. Əfsuslar olsun ki, bu gün əksər valideynlər öz övladlarını nə vaxtsa reallaşdıra bilmədikləri arzularını gerçəkləşdirməyə və ya prestijli peşəyə sahib olmağa məcbur edirlər. Valideynlər övladlarına bilərək təsir edir, onların gələcək seçimləri üçün xüsusi addımlar atırlar. Burada sevindirici bir məqam o ola bilər ki, valideyn övladının hər hansı bir sahədə qabiliyyətini görür və onu həmin sahə üzrə istiqamətləndirir. Zamanında verilmiş düzgün qərarlar nəticəsində gəncin peşə seçimi problemi həll olunur. Ancaq reallıq onu göstərir ki, ailələrin övladlara birbaşa təsiri heç də həmişə müsbət nəticələnmir. Gəlin etiraf edək ki, bir çox valideynlər övladlarını elə öz çalışdığı sahələrdə görmək istəyir. Bu zaman isə meydana “Valideynin peşəsinin davamçısı, ailə dəyərlərinin “qoruyucusu bir övlad” anlayışı çıxır. Məsələnin daha dərininə getsək, bir çox məqamlarda valideynlərin övladlarına peşə seçimi ilə bağlı psixoloji təsirlərini aydın şəkildə görə bilərik. Nədənsə valideynlər düşünür ki, əgər onlar bir sahədə uğur qazanıbsa, eyni nəticəni övladları da göstərəcək. Genetik amilləri nəzərə alsaq, valideynlərə bu baxımdan haqq qazandırmaq olar. Amma hər şeyi də irsiyyətin üzərinə atmaqla iş həll olunurmu?

Məlum olduğu kimi, əksəriyyət daha yüksək əməkhaqqı olan, cəmiyyətdə yaxşı statusa malik peşələrə sahib olmaq istəyir. Yuxarıda qeyd etdiyimiz peşənin “gələcək həyata zəmanəti” anlayışı burda öz təsdiqini tapır. Çünki normal şəkildə yaşamaq, öz istək və tələbatlarını ödəmək üçün maddi vəziyyətin yaxşılaşdırılması insanların həyatını da asanlaşdıracaq. Bu baxımdan da gənclər məhz yüksək əməkhaqqı ödənilən ixtisasları seçməyə meyilli olurlar. Valideynin peşəsi kifayət qədər yaxşı qazanc bəxş edirsə, gəncin də həmin sahəni seçmə ehtimalı yüksək olacaqdır. Hər bir halda ailələrin həm birbaşa, həm də dolayı təsiri gənclərin bu mövzudakı qərarlarında rol oynayacaqdır. Burada isə diqqət yetirilməli olan əsas məsələ, ailələrin zamanında övladlarının qabiliyyətinin fərqində olmaq, onları düzgün istiqamətləndirməkdir. Əlbəttə, valideynlər öz uşaqlarını daha yaxşı yerdə görmək, uğurlu mütəxəssis olmasını istəyir. Ancaq bu o demək deyil ki, gənclər mütləq şəkildə valideynin peşəsini davam etdirməlidir. “Mən bu sahədə uğur qazanmışamsa, övladım da eyni nəticəni göstərəcəkdir” fikrini özünüzdən uzaqlaşdıraraq ona daha yaxşı seçimlər təklif edə bilərsiniz. İxtisası prestijə yox, əmək bazarına görə seçmək lazımdır. Həm valideynlər, müəllimlər, həm də abituriyentlər ixtisas seçimində əmək bazarını nəzərə almalıdırlar. Bunu bilmək isə o qədər də çətin deyil.

Əziz abituriyentlər! Çalışıb ixtisas seçimində düzgün qərar qəbul etmək lazımdır. Çünki bu, gələcək həyatınızın karyerasının qurulmasında vacib amildir. Bu il də ixtisas seçimi yaxınlaşır. İllərlə arzuladığınız peşəyə yiyələnmək üçün ixtisas seçimində 3 əsas amilə – abituriyentlərin sayına, imtahan nəticəsinə və plan yerlərinə ciddi şəkildə diqqət edilməlidir. İlkin olaraq 2021-ci ilin tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları ilə tanış olmaq lazımdır. Amma onunla tam şəkildə yola çıxmaq da uğurlu ola bilməz. Abituriyentlər mütləq şəkildə 2021-ci ildə ixtisas qrupu üzrə eyni və daha çox bal toplayanların sayına və həmin ildəki plan yerlərinə diqqət etməlidir. 2021-ci ildə bəzi aşağı və ya yuxarı balla formalaşmış ixtisasların plan yerləri müqayisə olunmalıdır. Çünki bu il onların bəzisində azalma, bəzisində isə artma var ki, bu da ixtisas seçimi zamanı sizi yanılda bilər. Məsələn, 2021-ci ildə ödənişsiz 369.5 keçid balının formalaşdığı Naxçıvan Dövlət Universitetinin Fizika müəllimliyi ixtisasında 20 plan yeri var idi, bu il isə o ixtisasda plan yeri 5 yer azalıb, 15 plan yeri olub. Bu o deməkdir ki, keçən illə müqayisədə bu ixtisasda plan yerinin azalması həmin balın təkrarlanmamasına səbəb ola bilər. Başqa bir misal, 2021-ci ildə 372.1 keçid balının formalaşdığı Naxçıvan Dövlət Universitetinin Kompüter mühəndisliyi ixtisasında 10 plan yeri var idi, bu il isə o ixtisas üzrə plan yeri 5 yer artaraq 15 plan yeri olub. Deməli, bu ixtisası seçən abituriyentlər üçün də şans yaranmış olur.

Bir sözlə, ixtisas seçimi edən hər kəs Dövlət İmtahan Mərkəzi tərəfindən nəşr olunan və yayımlanan jurnallara, statistik məlumatlara, xüsusi buraxılışlara, ixtisas qrupları üzrə rəsmi məlumatlara diqqət etməli və bu sahənin mütəxəssisləri ilə məsləhətləşməlidir. Deyilənləri nəzərə almaqla seçim edin ki, istirahətsiz, yuxusuz günləriniz hədər getməsin.

*Əziz abituriyentlər! İxtisas seçərkən nəzərə almaq lazımdır ki, insan həyatda bir dəfə peşə seçir. Önəmli olan seçəcəyimiz peşəni sevmək, işimizin dəyərini anlamaq və peşəyə sadiqlikdir.*

**Arzu ABDULLAYEV**
*tarix üzrə fəlsəfə doktoru*

## Rabitəçilər “Türk Telekom İnternational” şirkətində təcrübə keçiblər



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə “Türk Telekom İnternational” şirkəti arasında qarşılıqlı əməkdaşlıq çərçivəsində nazirliyin mühəndisləri mobil operatorun Bursa şəhərində yerləşən telekommunikasiya sahəsində real iş şəraitində təcrübə keçiblər. “Türk Telekom İnternational” şirkətinin departament direktoru Alpər Gözəlin koordinasiyası ilə mobil operatorun peşəkar mühəndisləri Sərvət Özkan və Atakan Avcı tərəfindən rabitəçilərə telekommunikasiya sahəsində istifadə olunan yeni nəsil avadanlıqların iş prinsipi, baza stansiyaları, hər bir baza stansiyası ilə Mərkəzi İdarəetmə Sistemi arasında fiber-optik kabel xətləri vasitəsilə yaradılmış arabağlantı, informasiya daşıyabilən avadanlıqlar, tezlik diapazonları, rominq əlaqələri, səs, data və SMS xidmətləri barəsində ətraflı məlumatlar verilib.

Həmçinin təlimlər zamanı onlar fiber-optik kabellərin qaynaq edilməsi üçün müasir “Fujikura S90” cihazının iş prinsipi haqqında məlumatlandırılıblar. Bildirilib ki, linzalarla təchiz edilmiş qaynaq aparatı çəkilən lifin nüvə boyunca dəqiq düzülməsini təmin edir. Bundan əlavə, bu cür linzalar qaynaq avadanlığına müxtəlif növ lifləri ayırmağa imkan da yaradır. Bunlarla yanaşı, kabellərdə yaranmış nasazlığı aşkar edən, operativ olaraq obyektin yeri və sürəti barədə, eləcə də fiber-optik liflərin siqnalını yoxlayan Optik Şəbəkə İdarəetmə Sistemi (ONMS – Optical Network Management System) cihazı barəsində də məlumatlar verilib. Qeyd edilib ki, həmin cihaz işçi qüvvəsinin məhsuldarlığını artırmaqla yanaşı, uzaq məsafədən fiber-optik şəbəkələrin idarə edilməsini asanlaşdırır. Sistem lifin deqradasiyasını dəqiq müəyyən edir.

Təlim zamanı mühəndislər yeraltı kabellərin tapılması üçün istifadə edilən radar cihazının iş prinsipi ilə yaxından tanış olub, internet üzərindən xəritədə yerləşən bölgələrdəki kabellərin yerini təyin edən proqramın iş prosesini də izləyiblər.

Qeyd edək ki, bundan əvvəl Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə “Buta Global Enerji” şirkəti arasında mövcud olan əməkdaşlıq çərçivəsində nazirliyin mühəndislərinə dünyanın aparıcı şirkətlərindən olan Prysmian Groupun Türkiyə Respublikasının Bursa şəhərində yerləşən Mudanya fabrikində təlim keçirilib.

Həmin təlimlər rabitəçi-mühəndislərin ixtisaslı kadr kimi formalaşmalarına və bu sahədə biliklərinin artırılmasına geniş şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Hərbi liseyə qəbul imtahanı olub

İyulun 31-də Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahan Naxçıvan şəhər 5 və 14 nömrəli tam orta məktəblərdə təşkil edilib. Saat $10^{00}$-da başlanan imtahan 2 saat davam edib. İmtahanda abituriyentlərə dörd fənn üzrə – Azərbaycan dili, riyaziyyat, fizika, kimya fənlərindən, ümumilikdə, 80 test tapşırığı təqdim olunub. Qeyd edək ki, imtahanların idarə olunmasına 4 ümumi imtahan rəhbəri, 37 nəzarətçi-müəllim, 4 buraxılış rejimi əməkdaşı ayrılıb. Nəticələrin yaxın 2 həftə ərzində elan olunması nəzərdə tutulur.

**Xəbərlər şöbəsi**

*Muxtar diyarımızın mədəni həyatından hər dəfə söhbət açanda tarixi, ədəbiyyatı, milli-mənəvi dəyərləri, zəngin mətbəx nümunələri yazımızın əsas süjet xəttini təşkil edir. Keçdiyi tarixi inkişaf yoluna nəzər yetirsək görərik ki, qədim diyarımızın incəsənəti, habelə musiqi mədəniyyəti də uzun illər bu sahənin həqiqi ziyalı simalarının sayəsində yaşadılıb və bundan sonra da yaşadılacaqdır. Elə həmin sənətkar ziyalılarımızdan olan xormeyster, bəstəkar, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, Naxçıvan Dövlət Universitetinin Mədəniyyət və İncəsənət fakültəsinin Fortepiano kafedrasının professoru Səidə Məmmədovanın çoxşaxəli irsinin yer aldığı, müəllifi filologiya üzrə fəlsəfə doktoru, dosent Qalibə Hacıyeva olan "Bir ömrün sənət zirvəsi" adlı ədəbi nümunəsi, hesab edirəm ki, bu dediyimiz yüksək fikirlərin təsdiqi olmaqla bərabər həm də sənətə və sənətkara verilən dəyərin gözəl ədəbi nümunəsidir.*

*Yeni nəşrlər*

## Sənətə və sənətkara verilən dəyərin ədəbi nümunəsi – "Bir ömrün sənət zirvəsi"




"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis şəkildə nəşr olunan kitabın ilk səhifəsində Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor Gülnaz Abdullazadənin "Ön söz" başlıqlı məqaləsi ilə qarşılayırıq. Məqalənin epiqraf hissəsində qeyd olunan "Əsl sənət Günəşə bənzər, onun işığı sönməz, əbədidir!" fikirləri öz yerini müəllifin kitabla bağlı dəyərli fikirlərinə verir. Professor Gülnaz Abdullazadə müəllifin yaradıcılıq zəhmətindən söz açaraq yazır: "Kitabın səhifələrini vərəqlədikcə aydın olur ki, Səidə Məmmədovanın yubileyi ərəfəsində Qalibə Hacıyeva tərəfindən hazırlanan "Bir ömrün sənət zirvəsi" adlı bu kitab ustad sənətkara sonsuz sevginin ifadəsi kimi böyük diqqət və məhəbbətlə tərtib olunub. Kitabda Naxçıvanda boya-başa çatan, yaşayıb-yaradan bu böyük şəxsiyyətin həyat və yaradıcılığının bütün yönlərinə diqqəti cəlb edən müəllif, Səidə Məmmədovanın dirijorluq fəaliyyətinə gəldikdə nəinki onun ifaçılığından bəhs edir, həm də yaratdığı və rəhbərlik etdiyi kollektivlərin repertuar zənginliyindən də yerli-yerində söz açır".

Kitabın "Başlanğıc" adlı hissəsində müəllif əsrlərboyu cəmiyyətin aparıcı mövqeyində dayanan qadın ucalığından, qadın ülviyyətindən söhbət açaraq real faktlar əsasında çıxış edərək hadisələrə yanaşır və optimal baxış tərzi sərgiləyir. Tarixi hadisələrin ardıcıllığı ilə mövzunu işıqlandıran müəllif qadınlarımızın ictimaiyyətdəki fəallığını rəğbətlə qarşılayır və həmin mövzunu oxucuya Səidə Məmmədovanın çoxşaxəli yaradıcılıq yolu ilə vəhdətdə təqdim edir.

"Naxçıvanda musiqi mədəniyyətinin inkişaf tarixinə bir nəzər" başlıqlı hissədə müəllif əsrlərboyu xalqımızın hafizəsində kök salmış, milli-mənəvi dəyərlərimizin əsas qayəsini təşkil edən incəsənət dünyamızdan, habelə musiqi mədəniyyətimizin keçdiyi tarixi inkişaf yolundan söhbət açır. Müəllif haqlı olaraq qeyd edir ki, dünyanın qədim mədəniyyət mərkəzlərindən olan Azərbaycanda musiqi sahəsi də böyük mədəni-maarif yolu qət edib.

Kitabın növbəti fəsli "Səidə Məmmədovanın həyat və yaradıcılıq yolu" başlığı ilə sənətkarın bədii irsindən danışır oxuculara. Professor Səidə Məmmədovanın çoxistiqamətli yaradıcılıq yolunu müəllif bu fikirlərlə ifadə edir: "Sənət dünyasında peşəkar musiqiçi və ustad sənətkar kimi tanınmış Səidə Məmmədovanın fəaliyyətinin əsas hissəsi pedaqoji istiqamətə yönəlmiş olsa da, professional bir sənətkar kimi onun həyatı tamamilə yaradıcılıqla bağlı olmuşdur. Elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, musiqinin müxtəlif sahələri üzrə də yaradıcılıq fəaliyyətini davam etdirən Səidə xanım Azərbaycan musiqi mədəniyyətinə bəxş etdiyi bir çox istedadlı musiqiçi kadrlarla, eyni zamanda muxtar respublikada mədəniyyət və incəsənət sahəsində əldə etdiyi uğurlarla xalqın böyük rəğbətini qazanmış və Azərbaycan musiqi mədəniyyəti tarixində silinməz iz qoymuşdur".

Kitabda yer alan və Səidə Məmmədovanın sənət yolundan bəhs edən elmi publisistika nümunələri də diqqətdən yayınmır. Belə ki, Füzuli İbrahimzadənin "Şərq qapısı" qəzetinin 25 may 2002-ci il tarixli nömrəsində "Könüllərə düşən işıq" başlıqlı məqaləsində deyilir: "50 ilə yaxındır ki, Səidə xanım musiqi ilə nəfəs alır, yaşayır və yaradır. İfaçı musiqiçinin məharəti yalnız o zaman bədii hadisəyə çevrilir ki, o öz istedadı, bacarığı ilə ifa etdiyi əsərlərdə olan ideyanı, fikirləri dinləyiciyə çatdıra bilir. Səidə xanımın məharəti məhz dinləyici və tamaşaçıda musiqi ilə müəmmalı bir bağlılıq hissi doğurmaqda, musiqinin varlığı ilə qovuşdurmaqdadır. Ona görə də onu hamı sevir və sənətinə pərəstiş edir".

XX əsrin 60-cı illərindən yaradıcılıq yoluna başlayan Səidə Məmmədova məlum olduğu kimi, yalnız Azərbaycan musiqisinə töhfələr verməmişdir, o həm də Naxçıvanda musiqi sənətinin inkişafında müstəsna xidmətlər göstərmiş, bir çox savadlı incəsənət adamlarının yetişməsində böyük rol oynamışdır. Sadaladığımız bu fikirlərin davamını kitabda yer alan "Naxçıvanda musiqi mədəniyyətinin inkişafında Səidə Məmmədovanın rolu" başlıqlı bölmə ətraflı məlumatlar əsasında təqdim edir. Kitabın bu fəslində müəllif sənətkarın yaradıcılıq ruhunu müxtəlif hissələrə ayırır və hər bir dövr üçün Səidə xanımın keçdiyi sənət yolunu şərh edir.

Kitabda yer alan hər bir araşdırmanın ümumi tezislərindən də aydın olur ki, Səidə xanımın 80 illik ömür və sənətkarlıq yolu yalnız bir sahəni əhatə etməyib. O istər pedaqoji sahədə geniş fəaliyyət göstərmiş, Naxçıvanda yeni sənətkar qruplarının yaradılmasında canla-başla çalışmış, istər bəstəkar kimi çıxış etdiyi illərdə bir-birindən maraqlı, rəngarəng mahnılar bəstələmiş və son olaraq da dirijor kimi səhnələrimizdə əsl sənətkar qadın zərifliyinin canlı nümunəsini yaratmışdır.

"Böyük sənətkarlarla bir səhnədə" başlıqlı bölmə digərlərindən fərqli olaraq Səidə xanımla əl-ələ, baş-başa sənət yolunda çalışan böyük korifeylərdən, o cümlədən maestro Niyazi, Cahangir Cahangirov, Rəşid Behbudov, Müslüm Maqomayev, Şəmsi Bədəlbəyli, Fərhad Bədəlbəyli, Lütfiyar İmanov, Rasim Balayev, Məlik Dadaşov, Həsən Turabov, Zeynəb Xanlarova kimi böyük sənətkarlarla bir səhnədə çıxış etdiyi illərin qısa, xatirələrlə dolu tarixçəsidir.

Kitabın sonuna yaxınlaşdıqca "Səidə Məmmədovanın yetirmələri", "Sənət və sənətkar haqqında düşüncələr" başlıqlı hissələrlə qarşılaşırıq. Azərbaycanın sayılıb-seçilən, sevilən incəsənət ziyalılarının, sənətkarların Səidə xanım haqqında qeyd etdikləri fikirləri oxucunun gözü qarşısında sənətkarın çoxşaxəli irsini bir daha ortaya qoyur. Onun yaradıcılıq yolu ilə tanış olmayan insan belə həmin xatirələri oxuduqca söhbətin necə bir sənət dünyasından, yaradıcılıq ümmanından getdiyini duya bilər. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev "Musiqi mədəniyyəti və təhsilinə sədaqətli xidmət" başlıqlı yazısında qeyd edir ki, "Səidə Məmmədova musiqinin ən müxtəlif janrlarında yüksək bədii təsir gücünə malik, mənəvi saflıq aşılayan çox sayda dərin məzmunlu əsərlər ərsəyə gətiribdir. Onun uzun illər görkəmli ifaçıların repertuarını daha da zənginləşdirmiş mahnıları müasir Azərbaycan musiqi sənəti xəzinəsinin dəyərli nümunələri olub, özünəxas lirizmi və melodikliyi sayəsində dinləyicilərin böyük rəğbətini qazanıb". Nubar Abdullayevanın "Bizim Səidə və ya gözəllikdə sadəliyin gözəlliyi" məqaləsindəki bu sətirlər isə gözəl sənətkarımızın bədii obrazını gözlərimiz önündə ecazkar şəkildə canlandırır: "Gözəl musiqi ifaçılarının aludəçisiyəm... Bütün canlı musiqi zövq və istəklərimi Səidə Məmmədovanın dirijorluq edərkən çöhrəsinə baxanda təmin edə bilirəm. O, orkestrin qarşısında dayananda tarı da, fortepianonu da, kamançanı, kanonu, skripkanı da, dilləndirir, sanki özü oxuyur! Dirijor ifasına öndən baxmağı sevirəm. Böyük konsert zallarında Səidə xanımı izləmişəm, ancaq daha çox televiziya ekranlarından onun dirijor çöhrəsini – bir zəngin musiqi dünyasını heyranlıqla seyr etmişəm! Dirijor çubuğu götürmür. Barmaqlarının falanqalarından tutmuş saçlarına, baxışlarına, səsinə, nitqinə, beyninə, şüuruna qədər, dirijordur bu qadın!"

Kitabın "Son söz. Sənət zirvəsi" başlıqlı bölməsi isə müəllifin Səidə xanıma ünvanladığı ürək sözləri və ona həsr etdiyi "Sən uca zirvəsən" şeiri ilə başa çatır.

*Azərbaycan, eləcə də Naxçıvan musiqi mədəniyyətində özünəməxsus iz buraxmış, bir-birindən zəngin yaradıcılıq nümunələri ilə məktəb yaratmağa qadir olmuş Səidə xanım Məmmədovaya və sayılıb-seçilən sənət fədailərindən bəhs edən belə ədəbi-bədii, elmi-publisistik nəşrlər dəyərli sənətkarlarımıza həsr olunan, milli-mədəni irsimizin yaşadıcısına çevrilən qiymətli epopeyalar kimi hər zaman öz dəyərini qoruyub saxlayacaq.*

**Məcid RƏŞADƏTOĞLU**

## "Əsgərin kitab rəfi" adlı kitabtoplama aksiyası yekunlaşıb



Muxtar respublikanı əhatə edən layihənin məqsədi 7 may 2022-ci il tarixdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən start verilən eyniadlı kitabtoplama aksiyasına Naxçıvan gənclərini də cəlb etmək idi. Muxtar respublikanın şəhər və rayonlarından bir çox gənc aksiyaya qoşulub və aksiya müddətində 500-ə yaxın elmi, publisistik, bədii və digər janrlarda kitablar toplanaraq Əlahiddə Ümumqoşun Orduya təhvil verilib.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov çıxış edərək aksiyanın keçirilməsində məqsədin gənc əsgərlərin asudə vaxtının səmərəli təşkil olunması, onlarda mütaliəyə marağın artırılması, xalqımızın istər müharibə, istərsə də sülh şəraitində birlik təmsil edə biləcəyini hər zaman sübuta yetirmək olduğunu qeyd edib.

Əlahiddə Ümumqoşun Ordunun zabiti Göyüş Babayev əsgər və zabit heyəti adından minnətdarlıq edərək kitabları təhvil alıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Növbəti aktivlər verilib



Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi publik hüquqi şəxs və Azərbaycan Banklar Assosiasiyası arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair imzalanmış memoranduma uyğun olaraq həssas əhali qruplarına daxil olan daha 2 nəfər aktivlərlə təmin edilmişdir. Beləliklə də, proqrama cəlb edilən şəxslərin sayı 27-yə çatdırılmışdır.

Yeni aktivlər "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialı tərəfindən Ordubad rayonunun Sabirkənd sakini Mehbalı Nağıyevə maldarlıq sahəsi üzrə iribuynuzlu heyvan və Ordubad rayon Üstüpü kəndi sakini Elnur Həsənova qoyunçuluq təsərrüfatı üzrə xırdabuynuzlu heyvan həmçinin onların qidalanması üzrə qarışıq yem olmaqla kənd təsərrüfatı sahəsində məşğulluqlarının təmin olunması məqsədilə təqdim edilmişdir.

Memoranduma əsasən agentliyin mərkəzlərinə müraciət edən sağlamlıq imkanları məhdud olan şəxslər, aztəminatlı ailələr, sosial qayğıya ehtiyacı olan şəhid və qazi ailələri barədə məlumatlar əsasında muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən müxtəlif fəaliyyət sahələrinə uyğun aktivlərin verilməsi təmin edilir.

Qeyd edək ki, indiyədək verilən aktivlər kənd təsərrüfatı istiqaməti üzrə maldarlıq, istehsal-xidmət sahələrindən avtoçilingər xidməti, avtomobil şinlərinin təmiri, kiçik dülgər sexi, kiçik fotoatelye, qadın gözəllik salonu, telefon təmiri avadanlıqları, yerşumlayan aqreqat və kiçik dərzi sexi sahələrində təqdim olunmuşdur.

Xatırladaq ki, bu memorandum çərçivəsində muxtar respublika ərazisində yaşayan 50 nəfərin proqrama cəlb edilməsi nəzərdə tutulmuşdur.

***Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi***

## Monitorinqlər davam etdirilir



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən müvafiq sahənin inkişafı ilə bağlı sosial layihələr icra olunur, qadınlara fəaliyyət istiqamətlərinin inkişafı və genişləndirilməsi üçün sərmayə kapitalı verilir. Komitə tərəfindən sərmayə kapitalından düzgün istifadə edilməsi üçün mütəmadi olaraq monitorinqlər təşkil edilir. 2022-ci il 29 iyul tarixdə "Qadınların Dayanıqlı İnkişafı üçün Səlahiyyətləndirilməsi", həmin layihənin davamı olan "Naxçıvan Muxtar Respublikasında COVID-19-un təsirinə məruz qalmış qadınlara iqtisadi dəstək" və "Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" layihələri çərçivəsində sərmayə kapitalı almış 5 qadının iş yeri və təsərrüfat sahəsində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən monitorinqlər keçirilib. Belə ki, verilmiş sərmayə kapitalı sayəsində damazlıq heyvandarlıq-iribuynuzlu təsərrüfatları ilə məşğul olan Şərur rayon Ərəbyengicə kənd sakini Kutayis Həsənovanın, Cəlilkənd sakini Sevil Mahmudovanın, damazlıq heyvandarlıq-xırdabuynuzlu təsərrüfatı ilə məşğul olan Çərçiboğan kənd sakini Təranə Süleymanovanın və əkinçilik fəaliyyəti ilə məşğul olan Yengicə kənd sakini Validə Seyidovanın təsərrüfat sahələrində və dərzilik fəaliyyət sahəsi ilə məşğul olan Qışlaqabbas kənd sakini Nabat Vəliyevanın dərzi sexində aparılan monitorinqlər zamanı məlum olmuşdur ki, hər biri aldıqları sərmayə kapitalından təyinata uyğun istifadə edərək təsərrüfatlarını və sahibkarlıq fəaliyyətlərini genişləndirmişlər.

Monitorinq zamanı heç bir neqativ hal və nöqsana rast gəlinməmişdir.

Sonda qadınlar onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

### İtmişdir

Naxçıvan şəhəri, Babək məhəlləsi bina 19, mənzil 35-də qeydiyyatda olan Mirzəyeva Arzu Əkbər qızının adına olan 15451 inventar nömrəli texniki pasport və MH-0026586 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Dizə kəndində yaşayan İsmayılov Məmməd İsmayıl oğlunun adına verilən MH-0042671 nömrəli Daşınmaz Əmlakın Dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

***

Əliyev Cavad Səfər oğlunun adına olan 0900113262 nömrəli 30.07.2013-cü il tarixli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 679